# IV. “AÇILMAYAN SİRLƏR”İN İSTİNAD YOLU

## 1. Tarixin şəcərə həqiqəti

Dindar olsan da, dindən kənar olsan da, dinlərin yaranma tarixini, dini məzmunlu kitabları və əlbəttə, əsas da uca Allahın adı ilə bağlı olan kitabları bəşərin mənəvi sərvəti kimi öyrənməlisən. Ondan, yəni öyrəndiklərindən necə nəticə çıxaracaqsan, necə həyatının daha mənalı və məzmunlu olması üçün ondan istifadə edəcəksən, bu artıq sənin öz işindir.

Bütün hallarda mənəvi sərvətlərin yaradıcısı insanlardır. Mənəvi sərvətlər isə elmi və qeyri-elmi də ola bilər. Ona görə də dünyagörüşü dini, ilahi əsaslara söykənən düşüncə adamlarının yaratdıqlarını da dəyərləndirmək, bu mətnlərdən və bütövlükdə bu cür ilahiyyatçı düşüncə məhsullarından mənəvi-əxlaqi mühitin saflaşması üçün yararlanmaq mümkündür. Əks təqdirdə həyatını dini əsaslar üzərində qurmuş olan milyonlarla, bəlkə milyardlarla insanın mənəvi mühitində boşluq yaranardı. Hər halda dini-mistik düşüncə ilə yaradılmış mənəvi sərvətləri kor-koranə çıxdaş etmək bəşəriyyətin əxlaqi-mənəvi mühitində kasıblıq yaranmasına səbəb olardı.

Ulduz Qasımın *“Açılmayan sirlər”* (şərikli müəllif Ramiz İmanov, qeyd edək ki, kitabın üzərində birinci müəllif kimi Ramiz İmanovun adı göstərilib) əsərini dünya romançılıq ənənələri əsasında oxumaq mümkün deyil. Bu əsər bir şəcərə romanıdır. Və görünür, nəslin az-çox tanınmış adamlarının düşüncə materialları əsasında yazılıb. Doğrudur, əsər rəvayətlərdən, canlı hekayətlərdən, yaddaşda qalan xatirələrdən qidalansa da, Ulduz Qasım (və şərikli müəllif) əsərin əsas hərəkət xəttini təxəyyül əsasında qurur.

Zənnimcə, bu tipli əsərlərin bədii xüsusiyyətlərindən, obrazların xarakterik cizgilərindən çox əsas qəhrəmanlarının kimliklərindən, hansı nəslin şəcərəsinin zəncirini yaratmaqlarından danışmaq daha üstün olardı.

Düşünürəm ki, elə müəlliflər də *“Açılmayan sirlər”* əsəri ilə bağlı belə bir qənaətlə razılaşardılar ki, burada əsas məqsəd mənəvi keyfiyyət daşıyıcıları olan babaların kimliklərini yeni nəslə çatdırsınlar.

Onu da deyim ki, əsərin struktur-quruluş təbiətini mənimsəməkdə kitabın sonunda verilmiş şəcərə sistemi (cədvəllər) kifayət qədər mühüm vasitə olaraq qeyd olunmalıdır. Bütün bu deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, biz şərhlərimizi əsərdə əsas ifadə imkanı kimi istifadə olunan dialoqlardan çox tarixi faktlara əsaslanaq. Bunun üçün tədqiqatçı Ənvər Çingizoğlunun kitaba yazdığı *“Sirlərə aşina simalar”* adlı *“ön söz”*, zənnimcə, daha böyük əhəmiyyət daşıyır.

Ənvər Çingizoğlu görkəmli etnoqraf, şəcərəşünas idi. Onu tənqidçi Əsəd Cahangir şəcərəşünaslığın “tacsız kralı”adlandırırdı. Mən deyə bilmərəm ki, görkəmli tənqidçi nə üçün onu belə adlandırır. Mənəvi mühitin krallığı elə onun - yəni, tədqiqatçının yaratdığı əsərlərin əhatəsi ilə hüdudlanır. Ənvər Çingizoğlunun tədqiqat əhatəsi isə şimallı-cənublu bütöv Azərbaycanın ərazisini özündə ehtiva edirdi. Çox təəssüf ki, bu günlərdə - 60 illik yubileyinin qeyd olunması günlərində qəflətən vəfat etdi. Şübhəsiz, onun saysız-hesabsız əsərləri öz kompüterində qaldı və yaxud da özünün düşüncə sistemində əbədiyyətə qovuşdu. Bizə isə təəssüflənmək qaldı. Həqiqətən, Ənvər Çingizoğlu Azərbaycan şəcərəşünaslığı üçün əvəzsiz itki idi. Burada bir məqama da diqqət yetirmək lazımdır. O, Azərbaycan ərazisində yayılmış təriqətlərin də tarixini yaxşı bilirdi. Xüsusilə təriqət daşıyıcılarının mənsub olduğu şəcərəni arxiv materialları əsasında, özü də xüsusi dəqiqliklə sənədlər əsasında oxucusuna, dinləyicisinə çatdıra bilirdi. Ənvər Çingizoğlu həm yaradıcılığının, həm də şöhrətinin pik həddində əlimizdən getdi.

Böyük filosof, qüdrətli sərkərdə və dünyanın ən adil hakimlərindən Əli ibn Abu Talib deyirdi ki, o şey ki, sənin əlindən bir dəfəlik gedib, onun üçün təəssüflənmə. Demək, Azərbaycan mənəvi mühiti üçün də təriqətlərin öyrənilməsi, şəcərələrin araşdırılması həm də elə tariximizin araşdırılmasıdır. Heç özümüz də mənəvi mühitimizin keçmişi haqqında məlumatsız olmağımız günümüzün bağışlanmaz halı kimi qavranılmalıdır.

Ənvər Çingizoğlu, görünür, bu əsər üçün müəlliflərə xammal, material baxımından yardımçı olub. Çünki Ənvər Çingizoğlunun əlinin altında əvəzsiz xəzinə vardı. O, arxivləri araşdırmaq yolundan başqa, həm də hansı nəsli, hansı dövrü, konkret olaraq hansı şəxsiyyəti harada, necə axtarmağın yolunu daha dəqiq və aydın bilirdi. Bu baxımdan onun *“Açılmayan sirlər”* kitabına yazdığı sözün ümumi dəyərini yalnız düzgün və səmimi yanaşma ilə qiymətləndirmək olar. Əks təqdirdə, Ənvər Çingizoğlu *“ön söz”*ündə kitab haqqında, demək olar ki, heç nə danışmır. Əvəzində kitabın əsas qəhrəmanlarının həm mənəvi, həm də tarixi şəcərə yolunu şərh edir. Əvvəlcə, şəcərəyə tarixi baxımdan yox, mənəvi baxımdan nəzər salır. Özü də çox uzaqdan gəlir. Başqa sözlə, şeyxliyin haradan, necə, hansı yollardan keçdiyini maraqlı düşüncələrlə yazıya gətirir: *“Haqq dostları Onun sirlərinə, daxili və xarici aləmlərdəki felinin təcəllilərindən isminin təcəllilərinə keçir. Əldə etdiyi məzhəriyyət və gördüyü təvəccöh sayəsində qeyb aləmində keçən seyrü-səyahətini bir mənada müşahidə ilə zirvələşdirirlər. Onlar kainatda baş verən heç bir hadisənin təsadüf olmadığını, ayaqlarının bir yerə ilişməsinin belə bir hikmətlə olduğunu sanki müşahidə edirlər. Bu sirlərə vaqif olduqca ibadətləri daha da kamilləşir. Gündə beş deyil, əlli vaxt namaz qılsalar, yenə də layiqincə ibadət etmədiklərini düşünür və Onun hüzurunda utancdan iki qat olurlar. Onları tanıyın: sirlərə aşina simalar.- Şərqdə onları “vəli”, “övliya”, “şeyx”, “pir” və digər adlarla çağırırlar. Əvvəlcə şeyxin anlamını açıqlayaq. Şeyx-mürşid: Şeyx, lüğətdə “simasında yaşlılıq əlaməti üzə çıxan”; kimsə deməkdir. Cəmi şüyux və məşayix şəklindədir (Asım, Kamus tərcüməsi, 1, 547). Təsəvvüf istilahında “təriqət piri, mürşid və üstad” mənasındadır. Təkiyə və təriqət şeyxi, mədrəsədəki müdərrisə bənzəyir, lakin vəzifəsi baxımından fərqlənir. Çünki müdərris dərs verən şəxsdir, şeyx isə özünə nisbət edən saliklərə istedad və qabiliyyətlərinə görə mənəvi yüksəlişə çatdırmaq üçün rəhbərlik və öndərlik edər, faydalı və zərərli olanı göstərər, onların qəlblərinə şəriət bilgisini və Allah sevgisini yerləşdirməyə çalışar. Müdərrisin gördüyü iş nəzəri və şifahi, şeyxinki isə əməli və tətbiqidir. Şeyx, müridlərinin bütün xüsusiyyətlərini və qabiliyyətlərini əsas götürərək, hər kəsə ayrı-ayrı yol göstərir. Şeyx müridin daxilindəki sərtliyi tədricən yox etməyə çalışır. Müridin təslimiyyəti tamdırsa, tez zamanda yol qət edər, yetişər. Şeyx-mürid münasibəti, ata-övlad münasibəti kimidir. Çünki peyğəmbərlər, ümmətlərinə “ata” münasibətində olduğu kimi; peyğəmbərlərin vəkilləri və varisləri yerindəki şeyxlər də müridlərinə qarşı “ata” kimidirlər. Buna görə də təriqətlərdə, şeyx əvəzinə “dədə”, “baba” və “ata” terminlərindən də istifadə edirlər. Şeyx Quran və sünnəni yaxşı bilən bir alim olmalıdır. Fəqət hər alim şeyx ola bilməz. Şeyx olan kimsənin kamal sifətləri ilə əhatə olması, dünya və məqam sevgisindən keçmiş, az yemək, az yatmaq, az danışmaq və xəlvət kimi, riyazət və mücahidə, namaz, oruc və zikr kimi nafilə ibadətlərlə nəfsini təmizləmiş, Allah və rəsulunun əxlaqıyla əxlaqlanmış bir kimsə olması gərəkir. Şeyx, digər tərəfdən də Həzrət Peyğəmbərə (s.ə.s) uzanan zəncirvari bir silsiləyə sahib olmalıdır. Həzrət Əliyə çatan silsiləyə əhli-beytə hörmət əlaməti olaraq “silsilətuz-zəhəb”, yəni qızıl silsilə deyilir. Qızıl silsilə: Həzrət Məhəmməd (s) - Həzrət Əli (ə) - Həsən əl-Bəsri (v.110728) - Həbib əl-Əcəmi (v.130747-48) - Davud ət-Tai (v.165782) - Məruf əl-Kərxi (v.200815) - Şeyx Əbülhəsən Səri əs-Səqəti (v.253867) - Cüneyd əl-Bağdadi (v.297910) - Mimşad Dinəvəri (v.299912) - Məhəmməd Dinəvəri (v.340951) - Məhəmməd əl-Bəkri (v.380990) - Qazi Ömər Vəcihəddin (v.4421050) - Ömər əl-Bəkri (v.4871094) - Əbun-Nəcib Sührəvərdi (v.5631168) - Qütbəddin Əbhəri (v.5721177) - Rüknəddin Secəsi - Şeyx Babi Yaqub.Sührəvərdiyyə təriqəti, “Ədəbul-mürid” əsərinin müəllifi Əbün-Nəcib Sührəvərdi (v.5631168) tərəfindən qurulmuşdur”.* Göründüyü kimi, müəllif tədqiqatında olduğu şəcərənin mənəvi keçmişini İslam peyğəmbərinin zamanından başlayır. Və bu zamanın özündən gələn genetik və mənəvi genetik yolu izləyir.





Ənvər Çingizoğlunu müasir ədəbiyyatşünaslarımız arasından kimlərsə kitab haqqında dəqiq və aydın məlumat verməməyə görə də qınaya bilərdi. Ancaq Ənvər Çingizoğlu tədqiq olunan, xüsusilə əsərdə görünən obrazların həm bioloji, həm də genetik şəcərə yolunun əsas mənəvi başlanğıcından söhbət açır. Yazıçı Ulduz Qasımın (şərikli müəllif olaraq həm də Ramiz İmanovun) mənsub olduqları nəslin tarixi simalarının kimliklərini şərh etmək üçün, əgər belə demək mümkünsə, təbii şəkildə uzaqdan gəlir.

Şübhəsiz, söhbət XX əsrin dönəmində yaşamış olan insanların kimliklərinə işıq salmaq üçün kitaba *“ön söz”* yazmış Ənvər Çingizoğlu kitabın müəlliflərinin, babalarının adının yanında göstərilən *“Şeyx”* titulunun tarixi yolunu göstərməyi özünə borc bilir. Yəqin ki, bu yolda şeyxliyin həm yüksək inkişaf dövrü, həm də şeyxliyin dəyərinin uca tutulduğu zamanın özü də onun üçün ayrıca tədqiqat məqamı kimi götürülüb.

Yazıçı Ulduz Qasım, elə həm də Ramiz İmanov babalarının görkəmli şeyxlər olduğunu, özlərinin şeyxlik daşıyıcıları olduqlarını söhbətlərində həmişə deyirlər. Yaxşıdır ki, onlar öz mənəvi mənsubiyyətlərini *“Açılmayan sirlər”* romanı ilə göstərməyə çalışıblar. Ancaq bütün hallarda Ənvər Çingizoğlunun şeyxliyin mənəvi mahiyyəti haqqında düşüncələri oxucu üçün əsərdəki dialoqlardan daha artıq məlumat mənbəyidir. Doğrudur, əsərdə Ulduz Qasımın (həm də Ramiz İmanovun) mənsub olduğu nəslin görkəmli adamlarının mənəvi mühitləri bir çox həyat hadisələri ilə açıqlanır. Sərt dialoqlar, insan təbiətinin görünən və görünməyən tərəflərinin müəyyən qarşılaşmalarda üzə çıxması çox dəyərlidir. Ancaq bütün hallarda Ənvər Çingizoğlunun şərhləri də hətta əsəri oxumayanlar üçün belə dəyərli məlumat mənbəyi olaraq qalır. Tədqiqatçının düşüncələrini səbirlə oxumaq, hətta sitat kimi uzun olsa belə, qəbul etmək məcburiyyətindəyik: ***“XIII əsr. Şeyxliyin qızıl dövrü. Təkyə və dərgahlar bu dönəmdə artmışdır. Kəndlərdə və ən kiçik yaşayış məntəqələrində belə izlərinə rastlanılır. Təriqət və şeyxlərin sistemli bir şəkildə fəaliyyətlərinin bu dönəmdə başladığı söylənilə bilər.***

**(Davamı 5-ci səhifədə)**

# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

*(Əvvəli 4-cü səhifədə)*

*Tərbiyə, yetişmiş şəxsiyyətlərin, insanların əskik və zəif tərəfləri üzərində göstərdiyi təmsili təsirin adıdır. Şeyxin bütün feil və davranışları bir-biri ilə ahəngli olmalıdır. Əgər belə deyilsə, verəcəyi dərsin heç bir təsiri olmaz. Mürşid və ya mürşidi kamil, təsəvvüfdə ümumiliklə şeyx ilə bir mənada işlədilmişdir. Mürşid həkimə bənzəyir. Həkim necə yanına gələn xəstəni xəstəliyinə, bədəninin gücünə və dözümlülüyünə görə müayinə edərsə, mürşid də yanına gələn kimsələri, eyni şəkildə müayinə edər. Düşmənlə döyüşən əsgərin mövqeyi sərkərdə tərəfindən təyin edildiyi kimi, nəfs düşməniylə vuruşan müridin mücadilə yolu da mürşid tərəfindən təyin edilir. Şeyx və mürşidlər, özlərinə müraciət edən müridləri, məşrəblərinə görə "səyahət", "söhbət" və "xəlvət" yollarından biri ilə irşad edərlər. Hər şeyx eyni zamanda bir mürşiddir".* Və elə buradaca sözarası məsələyə müdaxilə yerinə düşər. Elə həm də "Açılmayan sirlər" romanının özü ilə bağlı məqamların üzərinə gəlir Ənvər Çingizoğlu. Burada Ulduz Qasımın (həm də Ramiz İmanovun) bədii tədqiqatları əslində elə Ramiz İmanovun tarixi tədqiqatlarının müəyyən mənada bədiiyata çevrilməsidir. Düşünmək olar ki, Ənvər Çingizoğlu həm öz tədqiqatlarını, həm də onun mənbələri əsasında yazılmış olan əsərləri kifayət qədər ruhunda qovuşduraraq keçirib. Yazı boyu Ənvər Çingizoğlu sovet dövründə qadağan olunmuş *"Şeyxlik"* titulunun düşüncədə yaşayan obrazlarını mənbələr əsasında üzə çıxarıb. Buna görə də Ulduz Qasımın (həm də Ramiz İmanovun) əsəri təkcə bədii cəhətdən dəyərli deyil, həm də tarixi faktlara, şəcərə dəqiqliyinə söykəndiyi üçün əhəmiyyətlidir.

Ənvər Çingizoğlu onsuz da fədakar tədqiqatçı idi. O, Qarabağ mənəvi mühitini kifayət qədər mükəmməl bilirdi. Kimsəyə minnət qoymadan (Ə.Çingizoğlu ana tərəfdən Cəbrayıl rayonunun Xudayarlı - Xələfli stansiyasından, ata tərəfdən Füzuli rayonunun Yağlıvənd kəndindən idi, Xələfli stansiyasında doğulub-böyümüş, Diri dağının ətəyində ərsəyə çatmışdı.

Xudafərin körpüsü onun üçün mənəvi istinad idi) bildiyi nə vardısa, hamısını xalqa verməyə, maraqlananlara çatdırmağa çalışırdı. Şübhəsiz, Cəbrayıl rayonunun Mehdili kəndinin şeyxlik şəcərəsi ilə bağlı tədqiqatları da bu baxımdan xüsusi əhəmiyyət kəsb edirdi. Elə ona görə də o, *"Açılmayan sirlər"* kitabına yazdığı *"ön söz"*də kifayət qədər aydınlığı ilə faktlara diqqəti yönəldir: *"Biz Cəbrayıl rayonunun Mehdili kəndində yaşayan bir şeyx ocağının şəcərəsini tədqiq etdik.Bu ocağın ulu babası Şeyx Babi Yaqub bin İsmayıl Qur Xərdir. Onun da kökü Ənsari şeyxlərinə dayanır. Bu şeyxlər öz başlanğıcını Şeyx Əmirdən götürür. Şeyx Əmir öncə Yəsrib adlanan Mədinə şəhərin civarında yaşam sürən Həzrəc qəbiləsindəndir. Həzrəc qəbiləsi Ənsara bağlıydı. Onun nəsəbi belədir: Şeyx Əmr ibn Hərəm bin Kəb bin Səlimə əl-Ənsari əs-Sələmidir. Şeyx Əmirin Abdulla adlı oğlu vardı. Şeyx Abdulla Həzrəc qəbiləsinin adlı ağalarından sayılırdı. Şeyx Abdullahın Cabir adlı oğlu vardı. Cabir ibn Abdullah 607-ci ildə Həzrəc qəbiləsində anadan olmuşdu. Həzrət Məhəmmədə, Həzrət Əliyə və Əhli-Beytə sədaqətli adamlardan idi. Ənsarların ilk müsəlmanlarındandır. Şeyx Cabir Ənsarinin yaxınlarından olan Ətiyyə belə nəql edir: "Cabir ibn Abdullah Ənsari ilə İmam Hüseynin (ə) ziyarəti üçün Mədinədən çıxdıq. O zaman ki, Kərbəlaya yetişdik, Cabir Fərat çayının kənarına getdi və qüsl aldı. Sonra libasını geyindi və ətir vurdu. Sonra hər addımında zikr deyə-deyə İmam Hüseynin (ə) qəbrinə tərəf getdi. O vaxt ki, İmam Hüseynin (ə) qəbrinin kənarına çatdıq, mənə söylədi: "Əlimi pak qəbrin üzərinə qoy" (cənab Cabir Ənsarinin gözləri görmürdü). Mən belə də etdim. Bu anda gördüm ki, Cabir qəşş elədi və qəbrin üzərinə yıxıldı. Bir az üzünə su vurdum. O vaxt ki, Cabir özünə gəldi, 3 dəfə "Ya Hüseyn! Ya Hüseyn! Ya Hüseyn" dedi".Ərbəinlə bağlı cənab Cabir Ənsari - Peyğəmbərimizin (ə) qocaman səhabəsi ki, Ərbəin günündə İmam Hüseynin (ə) müqəddəs məzarını ziyarət etdi - bir mühüm nöqtəni vurğulamışdır. Cənab Cabir Ənsari o kəsdir ki, əziz Peyğəmbərin (ə) insan yetişdirən bağının ən nəcib meyvələrindəndir. Bəli, həmin bu cənab Cabir Ərbəin günü Kərbəlanın əziz şəhidlərinə salam verdikdən sonra, bu sözləri deyir: "Biz də sizin daxil olduğunuz (aid olduğunuz, etdiyiniz) işə şərik idik".Cabir Ənsarini müşayiət edən, bu qocaman möminə yolda yardımçı olan həmin Ətiyyə adlı insan xatırlayır: "Ona dedim: "Ey Cabir! Biz əziyyət çəkmədik, qılınc vurmadıq! Bu insanların başları bədənlərindən ayrılıb, ailələri tənha qalıb, uşaqları yetim qalmışdır. Necə ola bilər ki, biz əcrdə, savabda onlarla şərik olaq?" Cənab Cabir cavabında buyurur: "Ətiyyə! Mən öz iki qulağımla Allahın Rəsulundan (s) eşitmişəm ki, buyurub: "Hər kim bir camaatın əməlini sevsə, o əməlin savabında onlarla şərikdir". Sonra dedi: "Ey Ətiyyə! Rəsulullah (s) buyurdu: "Mənim də əshabımın niyyəti - Hüseynin (ə) və əshabının həmin niyyətidir".Həzrət Cabir, İmam Hüseynin (ə) oğlu İmam Səccadı (ə) və İmam Hüseynin (ə) nəvəsi - İmam Səccadın övladı İmam Baqiri (ə) görmüşdü. Həzrət Peyğəmbərin (s) bir əmanətini çatdırılmalı idi Həzrət Cabir - İmam Baqirə (ə). Həzrət Peyğəmbər (s) Həzrət Cabirə bildirmişdi ki, vaxt gələcək, sən, mənim övladlarımdan olan Baqiri (ə) görəcəksən və mənim salamımı Baqirə (ə) çatdırarsan".* Mətn boyunca sadalanan adlar, xüsusilə, İslam tarixindən gələn ünvanlar bir-birini əvəz edir. Və istər-istəməz sanki mövzudan və mətləbdən (*"Açılmayan sirlər"*dən və kitabın təhlilindən) çox uzaqda olduğumuzu düşünürük. Ancaq bu uzaqlıq bizi nəinki yazıdan uzaqlaşdırır, üstəlik xüsusi bir cazibə ilə özünə tərəf çəkir.

Ənvər Çingizoğlu *"Açılmayan sirlər"*in mahiyyətini ayrı-ayrı adamların kimliyində yox, tarixi şəcərədə görür. Ona görə də usanmadan, hətta oxucusunu da usandırmadan inamı ilə mənəvi şəcərənin tarixi keçmişindən zamanımıza doğru hərəkət etməkdədir.

Burada bir-iki məqamı da qeyd etmək yerinə düşərdi. İfrat İslam təəssübkeşliyi ilə bir çoxları türk əsilli olmalarına baxmayaraq özlərini ərəb şeyxləri ilə calamaqda israrlıdırlar. Belələri Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da var. Amma onu da danmaq olmaz ki, Azərbaycan ərazisinə ərəb tayfaları arasından seçilmiş nəsillərin köçürülməsi prosesi 10-cu əsrdən o tərəfə ardıcıllıqla davam etmişdir. Gələn ərəb (İslam) missionerlərinin həm cənubi Azərbaycan, həm də şimali Azərbaycan ərazisində məskunlaşmaları zaman-zaman davam etmişdir. Gələnlərin hamısının məmur, hərbçi, vergi yığan, işğalçı olduğunu da düşünmək olmaz. Onların arasında İslam mənəviyyatının üstün tərəflərini təbliğ edənlər də az deyildi. Bu mənada Ənvər Çingizoğlunun hətta ifrat görünəcək dərəcədə şəcərə yolunu şərh etməsini müəyyən qədər qanunauyğun hesab etmək olar. Elə bu səbəbdən də biz tədqiqatçının şərhlərini müdaxilə etmədən oxucuya çatdırmaq istərdik: *"Rəvayət edilir ki, bir gün Həzrət Cabir küçədə İmam Baqiri (ə) görür və O Həzrətin (ə) Həzrət Peyğəmbərə (s) oxşadığını görüb kimliyini xəbər alır Həzrət İmam Baqirdən (ə). İmam Baqir (ə) kim olduğunu söylədikdə, Həzrət Cabir sevinir, gözləri sevinc göz yaşları ilə dolur. Və nəhayət, Həzrət Peyğəmbərin (s) əmanətini-salamını İmam Baqirə (ə) çatdırır.Türkiyənin Şanlıurfa eli Harran elçəsinə 20 km. uzaqlıqdakı Cabir əl Ənsar kəndində Cabir bin Abdullah (Cabir əl Ənsari) türbəsi və məscidi var. Peyğəmbər ilə birlikdə savaşlara qatılmış, Şamın, Harranın və Urfanın fəthlərində iştirak etmişdir.Şeyx Cabir əl-Ənsari 697-ci ildə Mədinə şəhərində vəfat edib. (İbn Əbdül-Birr, "Əl-isti ab", 2-ci cild, s.473). Şeyx Cabir əl-Ənsari İslam tarixinin ən böyük hədis alimlərindəndir. 1540 hədisin müəllifidir. Şeyx Cabir əl-Ənsari heç zaman yalan söyləməyib. Bir əxbarda deyilir: "Əli ibn İbrahim mənə atasından, o ibni Əbu Nəcrandan, o Asim ibi Humeyddən, o Məhəmməd ibn Müslimdən, o da Əbu Cəfər (imam Baqir ə.s)dan rəvayət etdi, dedi ki, "Cabir mənə Rəsulullahın s.ə.ə-nin "qardaş oğlu dədə kimi qismləndirilir" dediyini rəvayət etdi və Cabir yalan söyləməmişdir". (Kuleyni, "əl-Kafi", c.7, s.74). Bir gün Rəsulullah s.ə.ə. Cabir b. Abdullah əl-Ənsariyə dedi ki: "ey Cabir! Sən Məhəmməd b. Əli əl-Baqiri görəcəksən, gördüyün zaman mənim salamımı ona çatdırarsan". Bunun üstündən Cabir, Əli b. Hüseyn əs-Səccad ə.s-ın evinə gəlib Məhəmməd b. Əli əl-Baqiri soruşdu. İmam Səccad ə.s. ona "o uşaqlarla birlikdədir, sənə gəlməsi üçün onu göndərəcəm" dediyi zaman "Xeyir, mən ona gedəcəm" qarşılığını verdi və əl-Baqir ə.s.-ı axtarmaq üçün yola çıxdı. İmam ə.s.-ın hüzuruna çatdı, əhdini yerinə yetirdi, imamın başını öpdü və belə buyurdu: "Rəsulullah s.ə.ə. məni sənə Onun salamını çatdırmağım üçün göndərdi". İmam ə.s. dedi ki, "Rəsulullah s.ə.ə.-ə də, sənə də salam olsun". Sonra Cabir dedi ki, "Anam, atam sənə fəda olsun, Qiyamət günündə mənə şəfaət edəcəyinə dair bir güvəncə verə bilərsənmi?". İmam ə.s. dedi ki, "Bunu yerinə yetirəcəyəm, ey Cabir!" (Kəşşi, "Rical", c.1, s.41-43).Şeyx Cabir əl-Ənsari peyğəmbərin salamını beşinci imam Məhəmmədbağıra çatdırdı. O, İmam Hüseynin şəhadətindən sonra Kərbəlada Onun məzarını ilk ziyarət edən şəxsdir. (Usdül Gabe, c.1, s.257). Onun soyu Cabiri-Ənsari adlanır. Bu soyun nümayəndələri müsəlman ölkələrin əksəriyyətində ömür sürürlər.Şeyx Cabirin Abdulla, Mücahid, Əbdürrəhman, Məhəmməd, Aqil adlı oğlanları, Həmidə, Meymunə, Ümmühəlbib adlı qızları vardı".* Azərbaycan mənəvi mühitinin, həm də tarixinin tədqiqatçıları üçün bu şərhlər o qədər də dəyərli görünə bilməz. Çünki biz xalqımızı türk əsilli hesab edirik, mənəvi varlığımızın kökündə də əsas kitab kimi Dədə Qorqudun təlimini, hətta daha əvvəlki zamanlar üçün Zərdüştün *"Avesta"*sından gələn dünyagörüşü əsas hesab etmişik. Hətta bu gün Azərbaycan tarixi taleyinin sirlərinin açımında ərəb mənbələrindən çox Mahmud Kaşğarinin *"Divanül-luğat-üt türk"* kitabı daha əsasdır. Hətta Balasaqunlu Yusifin *"Kutatqu bilik"*i (Xoşbəxtlik elmi), Qırğız dastanı *"Manas"*ı və ən başlıcası, bəlkə də birincilər sırasında Orxon-Yenisey abidələri türk mənəvi tarixinin əsas mənbələri sanılır və bizim özümüzün də yer-yurd adlarımızın şərhində bu mənbələr əsas götürülür.




Əlbəttə, insanların hamısı eyni dünyagörüşdə deyil. Eyni mənəvi tələblərə söykənmirlər. Kimsə özünü ərəb əsilli hesab edirsə, heç onu da qınaqlara məruz qoymuruq. Amma bütün hallarda konkret əsərdən, konkret şəcərədən söhbət gedirsə, nə yazıçını (kitabın müəlliflərini), nə də tədqiqatçını (kitabın "ön söz"ünün müəllifini) ittiham edə bilmərik.

Amma bir faktı da etiraf etmək lazımdır. Mehdili kəndinin sakinlərindən bir çoxu özünü Ənvər Çingizoğlunun tədqiqi ilə üzə çıxmış şəcərənin varisi hesab edir və həmin şəcərədə tarixi fakt kimi babaların adları varisliklə şeyxlik titulunda göstərilir.

Ulduz Qasımın (həm də Ramiz İmanovun) *"Açılmayan sirlər"* kitabının bədii dəyərindən çox, şəcərə gücünün dəyəri baxımından əhəmiyyəti var. Bəlkə də gələcəkdə Ulduz Qasımın özü və yaxud da onun nəslindən olan hər hansı bir yazıçı bu əsərdəki konkret olaraq göstərilən onlarca obrazdan birinin həyatını daha oxunaqlı romana çevirə biləcək.

**02.08.2022**

# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

## 2. Mənəvi dəyərlərdən dünya nizamına...

*"Açılmayan sirlər"* əsərini yazdıran əsas səbəblər çox ola bilər. Lap elə yazıçı düşüncəsində vətən anlamının tarixi kökləri ilə bağlı da izah olunan səbəblər də görmək olar bu əsərin yazılmasında. Xüsusilə, Azərbaycan torpaqlarını işğal etmiş erməni vandallarının Qarabağda köklərinin olmadığına dair xalqımıza qarşı böhtanlarının cavabı kimi də yazıla bilərdi *"Açılmayan sirlər"*. Ancaq mənə elə gəlir ki, bu əsəri yazdıran əsas səbəblərdən biri Şərq və Qərb sivilizasiyalarının toqquşması ilə dağılan dəyərlərin bərpasına çağırış motividir. Şübhəsiz, Ulduz Qasım yüksək ixtisaslı jurnalist və istedadlı yazıçı kimi öz xalqı qarşısında hansı mənəvi borclarının olduğunu yaxşı bilir. Elə bu səbəbdən də mənsub olduğu nəslin şəcərəsinə istinad etməklə qarabağlıların hansı dəyərlərdən keçib gəldiyini göstərməyi özünə, qələminə borc bilib.

Azərbaycan xalqının özünəxas bir çox keyfiyyətləri var. Qonşuya münasibət (eləcə də, qonşu xalqlara), qonaqpərvərlik, mənəvi zənginliyə can atmaq, ata-baba yolunun ən üstün tərəflərini qoruyub-saxlamaq, geni zədələnməkdən xilas etmək məqsədi ilə mənsub olduğu soyu idealizə etmək, qorumaq... bunlar Azərbaycan xalqının tarixi-mənəvi dəyərləridir. Həm də tarixi dəyərləridir ona görə deyirik ki, azərbaycanlılar tarixi yurd yerlərini heç vaxt unutmur. Hətta o yurd yerlərinə ilk daş qoyan şəxsin adını belə elə həmin yerin özünə verməklə əziz tuturlar.

İndiki Ermənistan ərazisində, Gürcüstan ərazisində qalmış Borçalıda, hətta Dərbənddə və bütövlükdə cənubi Azərbaycan da daxil olmaqla geniş coğrafi məkanda bu gün də özünü hifz edən adlar ata-babalarımızın kimliyini qoruyub-saxlayırlar.

Bir sözlə, *"Açılmayan sirlər"* kitabı Ulduz Qasımın mənsub olduğu nəslin keçdiyi yola işıq salmaqla bərabər, həm də az qala unudulmaqda olan dəyərləri yada salmaqda da əvəzsiz mənbədir. Görünür, kitabın yazılması üçün müəllifləri artıq materialları ilə təmin edən Ənvər Çingizoğlu da toz basmış arxivlərdə yatan sirləri üzə çıxarmaqda maraqlı olub. Hətta indiki sürət əsrində bir çox insanların daha irihəcmli əsərləri səbrlə, maraqla oxuyacağına şübhə etdiyimdən əsərin əsas istinad məqamlarını, şəcərənin mənəvi hərəkət yolunu geniş və əhatəli "ön söz"ü ilə və həm də yığcam şəkildə yazıya gətirmişdir. Onun qeydləri arasında elə məqamlar var ki, könül söhbəti üçün hər kəsin dilindən səslənəcək əsaslar var. Xüsusilə onun insanların mənəvi nizamı ilə bağlı yazısındakı qeydlər çox dəyərlidir: ***"Şeyx Cabir Ənsari övladlarından Abdulla və Əbdürrəhman İslam fütuhatı dövründə əllərində Quran, başlarında ağıl İrana, oradan Azərbaycana, ordan isə Arana gəldilər. Bir qrupu Aranın Sisyan mahalının Şıxlar, bir qrupu isə Dizaq mahalının Şıxlar kəndində binələdi. Şıxlardan bir şeyx qopub indiki Babı kəndində bir zaviyə qurdu. Bərdənin, Beyləqanın əmir-əyanları, əşrafı onun yanına gəldilər. Sorğuladılar onu:***

*-Kimsən, nəçisən?*
*-Ənsari soylu bir şeyxəm.*
*-Məqsədin, məramın?*
*-İnsanları düzənə, cəmiyyəti nizama salmaq!*
*-Nə olub bizim nizama?*
*-Biz İrana qədəm basanda qardaşlar bacı ilə, oğullar ana, atalar qız övladı ilə evlənirdilər. Budurmu sizin nizamınız?*
*-Biz Zərdüşti deyilik. Xristianlığı qəbul etmişik. Kitabımız var. Əhli-zimmiyik. Cizyə ödəyirik. Biz keçmişdə də məcusi olmamışıq.*
*-Navasad ayında keçirilən illik mərasimlərə nə deyirsiniz? Ərmənin, Aranın hər köşə-bucağında Anahitin şərəfinə xüsusi bayramlar və kef məclisləri təşkil edilirdi. Bu məclislər də şərqin ən böyük kef məclislərindən hesab edilirdi. İldə bir dəfə, bir ay müddətində keçirilən bu cür məclislər sizin bir millət kimi çoxalmağınızda müəyyən rol oynayırdı.*
*-Keçmiş zamanda...*
*-Məbədlərinizdə həyatını Anahitə həsr etmiş qadınlar yaşayırdılar. Məbədə yalnız əcnəbilər buraxılırdı. Məbədin həm qadın, həm də kişi kahinləri ən varlı və tanınmış ailələrindən seçilirdilər. Onların Anahitin məbədində xidmət etmə müddətini isə bir qayda olaraq valideynləri müəyyənləşdirirdilər. Xidmət vaxtlarını bitirən qadınlar məbədi tərk edərkən bütün qazandıqları pulu məbəddə qoyurdular və ərə gedirdilər. Vaxtaşırı buradakı ərə gedəcək qadınların adaxlısı məbədin kahinlərindən onun nişanlısının özünü necə aparması barədə məlumat alırdı. Ən çox əcnəbinin ziyarət etdiyi qadın sizdə ən arzulanan gəlin hesab olunurdu. Yenə danışım Anahitdən, ananızdan?*
*- ...*
*- Biz ona görə bu torpaqdayıq ki, yolsuzu yola gətirək. Yer üzərində ədaləti bərpa edək. Biri yeyib, biri baxmasın. Yetimi kəmülfət, dulu naçar buraxmayaq. Bütün qəbilələrin bir qibləsi olsun, vəssalam!*
*Biz bura əmir kimi deyil, mömin kimi gəlmişik. Sizi də iman gətirməyə dəvət edirik.*
*"Möminlərin öndə gələnləri, mühacirlərlə ənsar və onlara ehsan duyğusuyla tabe olanlardır. Allah onlardan, onlar da Allahdan razı olmuşlardır (ət-Tövbə, 9100)".* Müəllifin fikri burada Qurandan gətirilmiş ayə ilə tamamlanır. Şübhəsiz, Ə.Çingizoğlunun məqsədi dini mövhumatı, elmdən kənar möminliyi təbliğ etmək deyil. O sadəcə insanların mənəvi nizamını qorumaq, dağılmış olan dəyərləri insan təbiətində bir araya gətirmək məqsədi ilə dini mənbələrə daha çox söykənir. Onu da qeyd etmək yerinə düşər ki, heç Ulduz Qasımın və şərikli müəllifin də məramı dini dəyərləri elmi dəyərlərdən qabağa çəkmək deyil. Sadəcə insanın mənəvi sağlamlığını qorumaq məqsədi ilə dinin sağlam, əxlaqi dəyər keyfiyyətlərini öz əsərləri üçün istinada çevirirlər.

Onu da deyək ki, Azərbaycan ərazisində ərəblərin hakimiyyətinin bərqərar olması heç də asan başa gəlməyib. İnsanlar öz yerləri, yurdları uğrunda işğala qarşı vuruşublar. Amma orası da faktdır ki, qüdrətli ərəb imperiyasının qarşısında vahid mərkəzə tabe olmayan feodallıqlar dayana bilməzdi. Hər halda bu gün də xalq arasında *"Biz qılınc müsəlmanıyıq"* deyimi ilə yaşayan məsəl bir çox həqiqətlərdən xəbər verir. O başqa məsələdir ki, istər könüllü, istərsə də, könülsüz İslam dini Azərbaycan ərazisində bərqərar olmuşdur. Doğrudur, ərəblərin Qarabağla bağlı əməllərində elə özlərinin yaydıqları müsəlmançılığa xəyanət də var. Vaxtı ilə Qarabağ ərazisində ərəb istilasına və zülmünə qarşı baş verən üsyanları yatırmaq üçün erməni Qriqoryan kilsəsini, bir sözlə, erməni patriklərinin xəyanətkar, ikiüzlü xidmətlərindən də yararlana bilirdilər. Elə bu səbəbdən də Qarabağın Dağlıq hissəsində ermənilər qismən öz varlıqlarını qoruyub-saxladılar və alətə çevrildilər.

Doğrudur, İslamın oturuşundan, düşüncələrə hakim olmasından sonra bu dinin üstünlüklərini təbliğ edən çoxlu sayda bilicilər zaman-zaman Azərbaycana gəlməkdə davam edirdilər. Onlar həqiqətən əxlaqi-mənəvi dəyərləri uca tutur, insanları düz yola səsləyirdilər. Əlbəttə, bu səsləyişin nüvəsində ərəb xilafətini qorumaq, ərəblərə sitayiş də əsas idi. Azərbaycan ərazisindəki bir çox şeyxlik təriqətinin izləri ni yaşadan məbədlər, ocaqlar, pirlər, türbələr var. Ənvər Çingizoğlu yeri gəldikcə əsərin özü də zinətləndirən, onu quru şəcərəçilikdən çıxaran məlumatlara rəvac verir: *"Şeyx Babi Yəqub bin İsmayıl Qur Xər XIII yüzildə yaşayıb. Hazırkı Füzuli rayonunu Babı kəndinin ərazisində yerləşən İmamzadə məqbərəsi yaxınlığında zaviyəsi varmış. Dövrünün böyük alimlərindən, təriqət mürşidlərindən sayılıb. Elxanlı sultanları ona hörmət edirmişlər. Onun müridlərini də əzizləyirmişlər. Tarixçi Fəzlullah Rəşidəddin yazır: "Əhmədin (Əhməd Təkudar xan (1282-1284) - Hülakü xanın Kutuy xatundan olan 7-ci oğlu və Abaqa xanın qardaşı, III Elxan) Şeyx Əbdürrəhmana böyük hörməti vardı və onu ata adlandırırdı. Aranda yaşayan Babi Yəqubun müridi Mengli işana isə qardaş deyirdi". (F.Rəşidəddin, Cami ət-Təvarix, Bakı 1957, (rusca), s.104). Qaynaqlardan bəlli olur ki, Şeyx Babi Yəqub Elxanlı dövlətinin ictimai-siyasi yaşamında önəmli rol oynayıb. Taxt-tacı qazanmaq istəyən xanzadələr öncə onunla siyasi birliyə nail olmayıbmışlar. Tarixçi Fəzlullah sonra öz əsərində qeyd edir: "Arqun haçan ki, Bəstəmə çatdı (övliyaların şahı) Əbu Yazid Bəstaminin, Allah onun qəlbini işıqlandırsın, qəbrini ziyarət etdi. Buradan xeyir-dua və böyük Allahdan uğur və qələbə arzuladı. Əhməd isə Şeyx Babinin yanına qaçdı və onu ardıcıllarından kömək istədi (F.Rəşidəddin gös. əsəri, s.103)". Tarixçinin gətirdiyi mənzum parçadan aydın olur ki, Şeyx Babi Yaqub ibn İsmayıl Qur Xər artıq vəfat etmiş və müridləri onun işini davam etdirirmişlər. Şeyx Babi Yəqub Füzuli bölgəsinin Babı kəndində dəfn edilmişdir. Məqbərənin üstünə yazılmış kitabənin tərcüməsi budur: "Bu məqbərənin zahid, kamil Şeyx Babi Yaqub ibn İsmayıl Qur Xər üçün tikilməsinə 672-ci ildə əmr olunmuşdur. Yer üzündə nə varsa, məhv olacaqdır". Hicri 672-ci il, 1273-74-cü il Miladi ilinə müvafiqdir. Şeyx Babi Yəqub nəslindən iki nəfər 1727-ci ildə Babı kəndində Osmanlılar tərəfindən siyahıya alınmışdır. Qaynaqda yazılır: Arasbar qəzasına aid olan Babı kəndi Şeyx Həsən Şahqulu oğlu, (Şeyx Həsənin) qardaşı Zal (Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, "Şuşa" nəşriyyatı, 2000). XVIII əsrin ortalarında şeyx Həsənin övladlarından şeyx Allahverdi Pənahəli xan Sarıcalı-Cavanşirə xidmət etmişdir. Şeyx Allahverdinin şeyx Pirverdi adlı oğlu vardı. Şeyx Pirverdi İbrahimxəlil xan Sarıcalı Cavanşirin hakimiyyəti dönəmində dövran sürmüşdü. Şeyx Pirverdinin Şeyx Dünyaməli, Şeyx Xudaverdi adlı oğulları vardı. Şeyx Pirverdinin ikinci oğlu Şeyx Xudaverdi XVIII yüzilin sonunda, XIX yüzilin önlərində yaşamışdır. Öncə molla yanında oxumuşdu. Sonra mədrəsə təhsili almışdı, mahalın dini işləri ilə ilgilənirdi. Şeyx Molla Xudaverdinin Haqqverdi, İmamverdi, Tanrıverdi, Allahverdi adlı oğulları vardı. Haqqverdi Şeyx Molla Xudaverdi oğlu 1797-ci ildə Qarabağın Xırdapara-Dizaq mahalının Namazlısərkar obasında anadan olmuşdu. Mola yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Haqqverdi Xəlisə ilə ailə qurmuşdu. Xudaverdi adlı oğlu, Şahnisə adlı qızı vardı. Xudaverdi Haqqverdi oğlu 1841-ci ildə Şuşa qəzasının Vərəndə sahəsinin Namazlısərkar obasında doğulmuşdur. Xudaverdi yeniyetmə yaşında tələf olmuşdu".* Beləliklə, Ənvər Çingizoğlu şəcərəni ardıcıl izləyərək *"Açılmayan sirlər"* kitablarının müəlliflərini maraqlandıran silsiləyə qədər gəlib çatır. Və biz istər-istəməz Qarabağın çiçəklənmə dövründə "Açılmayan sirlər" kitabının müəlliflərinin mənsub olduğu nəslin tarixi şəcərə sənədləri ilə təsdiq olunan ulularının adlarına məhz bu səhifələrdə rast gəlirik.

İnsan övladı az-çox dünyanın gəldi-gedərliyi, nəsillərin dünya köçündəki yeri haqqında düşünən hər kəs ulularının kimliyi haqqında məlumatı həmişə həyəcanla qarşılayır.

Müəlliflərin ulularının adlarının pönündə olan *"Şeyx"* rütbəsi onların yaşadıqları zamanda ümumi camaat arasındakı yerinin göstəricisidir. Onlar yaxşı bilirdilər ki, insanlar şeyx titulu daşıyan hər kəsə beyət edir, onların məsləhətlərini və hətta hökmlərini mübahisəsiz qəbul edirdilər. Bu yerdə Nizami Gəncəvinin də adının əvvəlindəki şeyxlik mahiyyəti təkcə onun şairliyi və hikmət sahibi olmasıyla bağlı deyil, həm də dünya nizamının bərpası naminə onun həm əsərləri, həm də xalq arasındakı söhbətləri ilə mübarizəsindən xəbər verir.Bu gün də Nizaminin qəbri şeyx qəbri kimi ziyarətgahdır.

Ənvər Çingizoğlunun arxiv araşdırmaları ilə əldə etdiyi faktlar və sənədlər o qədər mötəbərdir ki, bir-birini əvəz edən adların sırasında öz ulularımızı görürmüş kimi cazibəyə düşürük. Biz davam edən şəcərənin 18-ci əsrlə başlanan yolunu izlədikcə bizə tanış olan mühitə daha çox yaxınlaşırıq. Artıq tanış yer adları, müəyyən hadisələr, eləcə də müəllifləri daha çox maraqlandıran soya mənsub insanların ünvanları qəlbimizi riqqətə gətirir. Onu da demək yerinə düşər ki, müəlliflər əsəri işləyərkən təkcə quru tarixi faktları sadalamırlar. Yəni Ənvər Çingizoğlunun təqdim etdiyi şəcərə faktlarını təxəyyül süzgəcindən keçirirlər. Beləliklə, nəsillərin təbiətini xarakterizə edən dialoqlar, yaddaşda yaşayan hadisələrin canlı mənzərəsi bədii söz üçün əsas xammala çevrilir.

***(Davamı 7-ci səhifədə)***

# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

*(Əvvəli 6-cı səhifədə)*

Ənvər Çingizoğlu şəcərənin keçdiyi yolu birər-birər izləməklə Araz sahillərinə qədər gəlib çatır: "*Şeyx Molla Xudaverdinin ikinci oğlu İmamverdi 1817-ci ildə Qarabağın Xırdapara-Dizaq mahalının Namazlısərkar obasında dünyaya gəlmişdi. Molla yanında ibtidai təhsil almışdı. Sonra Təbriz şəhərində mədrəsədə ali təhsil almışdı. Təhsilini tamamladıqdan sonra vətənə dönmüşdü. Tiflis ruhani idarəsinin, Yelizavetpol (Gəncə) ruhani məclisinin qərarı ilə Vərəndə sahəsinin Mərcanlı (Mərcanlı, Mehdili obaları) prixoduna (nahiyəsinə) axund təyin edilmişdi. 31 iyul 1864-cü ildə Dövlət Xəzinə Palatasının qərarı ilə rəiyyətlikdən çıxarılıb vergiödəməyənlər sırasına, ruhani zümrəsinə daxil edilmişdi. Molla İmamverdi bir neçə obanın dini işləri ilə ilgilənirdi. Böyük mal-dövlət sahibi idi. Onun törəməsi İmanov soyadını daşıyır. Molla İmamverdinin Mehdi, Məmmədqulu, Həşim, Hüseynqulu, Mahmud adlı oğulları vardı. Mehdi Molla İmamverdi oğlu 1857-ci ildə Şuşa qəzasının Vərəndə sahəsinin Namazalı sərkar obasında anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Mehdi İmmi Allahverdi qızı ilə yaşam qurmuşdu. Qaraş, Səlim adlı oğulları, Şərəf, Şəhribanu və Şəkər adlı qızları vardı. Qaraş Mehdi oğlu Cəbrayıl qəzasının Mehdili obasında doğulmuşdu. Xudaverdi Şahlar, Əvəz, Şakir adlı oğulları, Maya, Adilə və Raya adlı qızları var*". Biz artıq şəcərədə adları çəkilənlərlə indiki tariximiz arasında 150 illik məsafədəyik. Onu da deyim ki, artıq bu 150, bəlkə də 200 illik tarixi müəlliflər də kifayət qədər bilir. Elə ona görə də əsərin əsas məzmununu məhz bu əhatədə işləməyə çalışıblar. Çünki iki əsrlik zaman yaddaş üçün kifayət qədər aydındır, görünə biləndir. Ayrı-ayrı nəsillərin bir-birinə ötürdüyü əhvalatlar müəlliflərə də gəlib çata bilmişdir.

Ayrı-ayrı hökmdarlar Azərbaycan xalqının daha mübariz nəsillərinin varislik əlaqələrini qırmaq üçün qəddar siyasətlərini günümüzəcən davam etdiriblər. Bu münasibət, ümumiyyətlə, türk xalqlarına qarşı həmişə repressiv xarakter daşımışdır.

### 3. Ölməyən dəyərlər: mərdlik, igidlik...

19-cu əsrdə baş verən hadisələr, xüsusilə əsrin birinci qərinəsində Azərbaycanın iki dövlət arasında parçalanması, bölüşdürülməsi nəsillərin yaddaşında ağrılı iz qoydu. İstilaçılar o tay-bu tay, mənim-sənin bölgüləri ilə insanların düşüncələrində təfriqə yaratdı. Ayrı-ayrı dönəmlərdə tayfalar, nəsillər müxtəlif səbəblərdən köçkünlük əzablarına dözməli oldular. Xüsusilə, Qaradağdan Qarabağa, Qarabağdan Qaradağa... Azərbaycanın tarixi taleyində baş verən bu ağrılı mərhələ çox uzandı, hətta mən deyərdim ki, nəsillərin yaddaşına mənfi təsirini XX əsrdə Sovet dövründə də göstərməkdə idi. İranda fars-molla rejimi dilimizə qarşı qəddar, işğalçı münasibəti bu gün də davam etdirməkdədir. 30 milyona qədər azərbaycanlının normal məktəbi yoxdur. Ən başlıcası, fars-molla rejimi ikiüzlü siyasət yeritməklə parçalanmış olan eyni xalqın arasında yadlıq toxumları səpir və bunun hər cürə kök atmasına, rişələnməsinə yardımçı olur. Hətta fars-molla rejimi 44 günlük müharibə dövründə riyakar siyasəti ilə özünü ifşa etsə də, yenə xəyanətkar mövqeyindən geri durmur. Zəngəzur dəhlizinin açılmasına hər cür maneçilik törədir. Ermənistanın təslim şərtlərini yerinə yetirməyə mane olur. Bütün bunlar tarixi, ruhu, mənəviyyatı bir olan xalqı yenə də bir-birindən ayıra bilmir.



Ulu babam Şeyx Babi Yaqubun maqbərəsini ziyarət edərkən

"Açılmayan sirlər" kitabının müəllifləri canlı yaddaşdan və arxiv sənədlərindən bəhrələnərək XIX əsrin, eləcə də XX əsrin Sovet zamanında yaşamış soyun görkəmli insanlarının xarakterini, təbiətini bədii sözün gücü ilə canlandıra bilirlər.

Yenə Ənvər Çingizoğlunun "ön söz"ündəki müəlliflərin mənsub olduqları nəsillə bağlı maraqlı epizodlar diqqəti çəkir: "*Molla İmamverdinin ikinci oğlu Məmmədqulu 1862-ci ildə Şuşa qəzasının Vərəndə sahəsinin Mehdili obasında dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi. Hacı Molla Məmmədqulu Arazboyu obalarda sayılan-seçilən din xadimi idi.*

*...Mir Cəfər Bağırov sovetlərə qarşı çıxan qaçaq hərəkatını yatırmaq üçün Qarabağa gəlir. Oba-oba, kəndbəkənd gəzib qaçaqları, qolçomaqları, ixtilafçıları, xoşuna gəlməyənləri dənləyib güllələtdirir. El yolu ilə Zəngəzura tərəf yollananda, Horadiz ətrafındakı Burğadərəsində onu qarşılamağa gələnlərin içində Hacı Molla Məmmədqulunu görüb atını saxlayır. Hal-əhval tutub görüşəndən sonra bildirir ki, hacı, get, kənddəki qaçaqların başına ağıl qoy, üzə çıxsınlar. Sovet hökuməti ilə hökumətlik etmək olmaz. Çalışıb kolxoza yazılsınlar, başlarını aşağı tikib çörək yiyəsi olsunlar.*

*Hacı Molla Məmmədqulu Bağırovu arxayın edib yola salır. Mehdili obası Bağırovun çəngindən qurtarır*". Bütün zamanlarda müdrik insanların sözünün gücünü olan ağsaqqalların toplumun həyatının qorunmasında xüsusi yeri olub. "*Açılmayan sirlər*" kitabının müəlliflərinin ulularından olan Molla Məmmədqulunun da belə bir insan olduğu təqdim etdiyimiz epizodda bütün parlaqlığı ilə görünür.

Onu da deyim ki, Cəbrayıl ərazisinin və eləcə də Zəngəzurun Sovet hakimiyyətinə tabeçiliyi asan başa gəlməyib. Demək olar ki, əhalinin içərisindən at minə bilən, silah işlədən bütün qorxmaz insanların hamısı ən müxtəlif üsul və vasitələrlə aradan götürülüb, öldürülüb, repressiya edilib və bundan sonra əhalinin müqaviməti qırılıb.

Hacı Molla Məmmədqulu da zamanına görə tanınan simalardan idi. Onun haqqında maraqlı söz-söhbətlər camaat arasında indi də dolaşmaqdadır. Onu da deyim ki, bu söz-söhbətlərin, az qala əfsanəyə çevrilmiş olan əhvalatların hamısının içərisindən səhvi mərdliklə etiraf etmək, qorxmazlıq, mərdlik, insanın şəxsiyyətini uca tutmaq kimi keyfiyyətlər tarixi dəyərlər kimi yaşarıdır.

Ənvər Çingizoğlunun təqdim etdiyi və müəlliflərin istinadı olan maraqlı bir əhvalatı burada da yada salmaq olar: "*...Güney Azərbaycanın Qaradağ vilayətində yaşam sürən Çələbiyanlı elinin xanlarından biri Hacı Molla Məmmədqulunun sürüsündən 25 erkək oğurlayır. Hacının rahatsız olduğunu görən Kərbəlayi Rəfi əmisini arxayın edib Qaradağa yolanır. Əvvəlcə Arazın yaxasındakı qarğılıqdan bir qarğı kəsir. Qarğını artlayıb içinə ərinmiş yağ doldurur. Aparıb atlı qarışqanın yuvasının ağzına qoyur. Yağın qoxusunu hiss edən qarışqalar dolurlar qarğının içinə. Bəs deyilincə qarışqa toplanandan sonra götürüb keçir Həsrətan kəndinə. Xan bu kənddə olurmuş. Gecəni araya salıb xanın olacağına yaxınlaşır. Xanla arvadı yatan otağı tapıb qarğının ağzını açır. Qarışqalar doluşurlar arvadın yerinə. Arvad bir-iki dəfə o yan, bu yana aşıb köynəyi götürüb Qarabağa qayıdır. Köynəyi Arazın ortasındakı adada gizlədib evə dönür.*

*Sabah açılır. Xanım baxır ki, köynəyi yoxdur. Ora köynək, bura köynək, tapılmır. Xan düşmənlərindən şübhələnir. Deyir ayə, bunu apartsa Hacı Məmmədqulu apartdıracaq. Yəqin erkəklərini istəyir. Bir-iki hörmətli adam çağırıb Hacının üstünə iltimasa göndərir. Adamlara 25 erkək, üstəlik də bir at qoşur.*

*Elçilər Hacı Molla Məmmədqulunun evini tapıb söyləyirlər ki, bəs sizdə bir əmanət var, onun ardınca gəlmişik. Hacı Molla Məmmədqulu tez Kərbəlayi Rəfini çağırıb elçiləri yola salmağı tapşırır. Köynəyi gətirdikləri atla bərabər özlərinə verib yola salırlar.*

*Hacı Molla Məmmədqulu 1933-cü ildə vəfat edib.*

*Hacı Molla Məmmədqulu öncə Pəri İbrahim qızı, sonra Əzizxanım Hüseynqulu qızı ilə həyat qurmuşdu. Qasım, İmamverdi, İbrahim, Məhəmməd, Yusif, Əyyub adlı oğulları, Zeynəb, Ballı, Güllü, Dürrə, Rahil adlı qızları vardı. Qasım Hacı Molla Məmmədqulu oğlu 1900-cü ildə Cəbrayıl qəzasının Mehdili obasında dünyaya təşrif buyurmuşdu. Öncə Cəbrayıl qəzasının Pirəhmədli kəndində, sonra Xorasanın pak torpağı Məşədi-müqəddəsdə dini təhsil almışdı. Təhsilini tamamladıqdan sonra vətənə dönmüş, kəndlərində mədrəsə açmışdı. Məşədi Molla Qasımın ömür yolu Sovet dönəmində keşməkeşli keçmişdi. Hacı Şeyx Qasım Qafqazi 1980-ci ildə Qum şəhərində vəfat edib. Hacı Şeyx Qasım Mədinə, Bənövşə ilə ailə qurmuşdu. Fazil adlı oğlu, Gülsüm, Dürrə və Fatimə adlı qızları vardı. Fazil Hacı Şeyx Qasım oğlu 1930-cu ildə Cəbrayıl rayonunun Mehdili kəndində anadan olmuşdu. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi. Hacı Fazil 2004-cü ildə vəfat edib. Hacı Fazilin Vəzir adlı oğlu, Ulduz adlı qızı var. Ulduz Qasım Cəbrayıl rayonunun Mehdili kəndində doğulub. Hacı Molla Məmmədqulunun ikinci oğlu İmamverdi 1902-ci ildə Cəbrayıl qəzasının Mehdili obasında dünyaya təşrif buyurmuşdu. İmamverdi uşaqkən tələf olmuşdu. Hacı Məmmədqulunun üçüncü oğlu İbrahim 1905-ci ildə Qaryagin qəzasının Mehdili obasında anadan olmuşdu. Arazboyu obalarda dini işlərlə ilgilənirdi. Molla İbrahim 1983-cü ildə vəfat edib*". Adlar bir-birini əvəz edir. Əlbəttə, bu əvəzlənmələr sadəcə ad dəyişməsi deyil, həm də yaşayan tarixin canlı salnaməsidir. Biz artıq şəcərənin o adlarına rast gəlirik ki, bir çoxunu şəxsən görmüşük, haqlarında məlumatlıyıq. Onu da deyim ki, Ənvər Çingizoğlu şəcərənin bu hissəsində artıq "*Açılmayan sirlər*"in müəllifinin adını da xatırladır.

İnsanların tarixi taleyində bir ilahi nizam həmişə hakimdir. Düşünürəm ki, belə bir nəslin mənəvi potensialını üzə çıxara biləcək hansısa qüvvətli bir gen daşıyıcısı meydana çıxmalı idi və birmənalı demək olar ki, bu gen daşıyıcısı məhz Ulduz Qasım olub.

Uğurlarının hər birinə aid həyatın ən gözəl romanlarını silsilə şəkildə Ulduz Qasım yaza bilərdi. Amma onun yaradıcılıq istiqamətini erməni vandallarının Qarabağı işğal etməsi hadisəsi dəyişdi. O bütün mənəvi imkanlarını insanların səfərbər olunması naminə sərf etdi. Publisist yazıları, povest və hekayələri, romanları ilə dövrümüzə dayaq durdu. Düşmənin eybəcər simasını həyat həqiqətlərinə istinadla qələmə aldığı romanlarında bütün reallıqları ilə əks etdirdi. Beləliklə, "*Solmayan Nərgiz*", "*Xocalı şikəstəsi*", "*Qarabağda qiyamət*", "*Ağ göyərçinlər*" kimi bədii dəyərini zaman-zaman qoruyacaq əsərlər yaratdı.

Bəli, şəcərə davam edir.

**04.08.2022.**